**FAQ**

**Doktorantura Müraciət qaydaları**

**Sual**

**Xaricdə doktorantura səviyyəsində təhsil almaq istəyən tələbə xarici ali təhsil müəssisəsinə qəbul almadan Dövlət Proqramına müraciət edə bilərmi?**

Müvafiq qaydalara uyğun olaraq, xarici ali təhsil müəssisəsinə təhsil haqqı ilə bağlı depozitin ödənilməsi, namizəd tərəfindən transkriptin və ya əvvəlki təhsil səviyyəsi üzrə diplomun təqdim edilməsi istisna olmaqla, namizəd xarici ali təhsil müəssisəsinə şərtsiz qəbul olunmalıdır.

**Namizəd "2022-2028 Dövlət Proqramı" çərçivəsində xaricdə doktorantura təhsili almaq üçün magistratura təhsilini bitirmədən müraciət edə bilərmi?**

Müvafiq qaydalara uyğun olaraq, doktorantura səviyyəsi üzrə təhsil almaq məqsədilə namizəd cari tədris ilində magistratura səviyyəsi üzrə ali təhsil müəssisəsinin sonuncu tədris ilində təhsil almasını təsdiq edən arayış və ya magistr ali elmi-ixtisas dərəcəsi haqqında dövlət sənədinin təqdim etməlidir.

**Namizəd magistratura təhsilini xaricdə aldığı təqdirdə təhsilin kvalifikasıyasının tanınması vacibdirmi?**

Müvafiq qaydalara uyğun olaraq, doktorantura səviyyəsi üzrə təhsil almaq məqsədilə namizəd xaricdə ali təhsil aldıqda kvalifikasiyasının tanınmasına dair şəhadətnamənin surətin təqdim etməlidir.

**Dövlət Proqramına müraciətə dair elan nə zaman və harada paylaşılır?**

Sənəd qəbuluna dair müvafiq elanla bağlı məlumatları əldə etmək üçün dp.edu.az internet səhifəsini və digər sosial media hesablarını (Facebook, Instagram, LinkedIn) izləməyəniz tövsiyə olunur.

**Hansı ixtisaslar üzrə Dövlət Proqramına müraciət etmək olar?**

Müvafiq qaydalara uyğun olaraq, xaricdə bakalavriat/magistratura/doktorantura səviyyələri üzrə sənəd qəbulu Nazirlik tərəfindən hər il yenilənən "Dövlət Proqramı çərçivəsində təhsil üçün prioritet ixtisas sahələrinə uyğun təhsil proqramlarının nüfuzlu xarici ali təhsil müəssisələri üzrə siyahısı" əsas götürülərək həyata keçirilir.

**Müraciət etmək üçün dil biliyi sertifikatı nə qədər vacibdir?**
Müvafiq qaydalara uyğun olaraq, namizəd təhsil alacağı xarici ali təhsil müəssisəsinin tədris dilini dillər üzrə ümumavropa çərçivə sənədinə (The Common European Framework of Reference for Languages - CEFR) uyğun olaraq ən azı C1 səviyyəsində bilməsinə dair beynəlxalq səviyyəli dil sertifikatına (ALPT, DUOLINGO, CILS, DELE, DELF, HSK, IELTS, JLPT, TestDAF, TOEFL, TOPIK, TÖMER) malik olmalıdır.

**Doktorantura səviyyəsi üzrə Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) seçim zamanı rol oynayırmı?**

Müvafiq qaydalara uyğun olaraq, doktorantura səviyyəsi üzrə təhsil almaq məqsədilə namizədin Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) təqdim etməsinə ehtiyac yoxdur.

**"Yüksəliş" müsabiqəsinin qalibiyəm, bu mənə seçim prosesində hər hansı üstünlük verirmi?**.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyun tarixli 1354 nömrəli Fərmanı ilə təsis edilmiş "Yüksəliş" müsabiqəsinin qalibi olmuş namizədlərin aşağıda qeyd olunmuş meyar üzrə qiymətləndirilməsi aparılır.

*2.2-1.7. namizədin elmi tədqiqat işlərini aparmaq bacarıqları;*
*2.2-1.8. namizədin məntiqi mühakimə yeritmək bacarıqları;*
*2.2-1.9. namizədin kommunikasiya bacarıqları, özünəinam və inandırma qabiliyyəti.*

## Tələb olunan sənədlər

**Dövlət Proqramına müraciət etmək üçün hansı sənədlər tələb olunur?**

Namizəd "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil alacaq gənclərin seçilməsi meyarları və prosedurları üzrə Qayda"nın 3.2.1 -3.2.3 yarımbəndlərindən müvafiq məlumatı əldə edə bilər

**Sənədlərin hansı dildə təqdim olunmalıdır?**

Müvafiq Qaydalara əsasən, sənədlər ingilis, rus və türk dillərindən başqa digər dillərdə olduğu təqdirdə Azərbaycan dilinə tərcümə olunaraq notariat qaydasında təsdiq edilməlidir.

**Elektron ərizə və sənədlərə baxılması**

**Namizəd elektron şəxsi kabinetə daxil olmaq üçün təqdim olunan istifadəçi adı və parolu unutduğu təqdirdə nə etməlidir?**
Namizəd portal.edu.az səhifəsinə daxil olaraq şifrəni unutdum bölməsinə daxil olaraq yeni şifrə təyin edə bilər.

**Tələb olunan sənədləri Elm və Təhsil Nazirliyinə elektron poçtla göndərmək olarmı?**

Namizəd Dövlət Proqramına müraciət etmək üçün yalnız portal.edu.az səhifəsi üzərindən daxil olaraq sənədlərini təqdim etməlidir.

## Müsahibə

**“2022-2028 Dövlət Proqramı” na qəbul prosesi hansı formada həyata keçirilir?**

“2022-2028-ci illər üzrə Dövlət Proqramı”na sənədlərin qəbulu "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı" Elektron Ərizə Sistemi” (bundan sonra – elektron ərizə) üzərindən sənəd qəbulu həyata keçirilir. Dövlət Proqramının iştirak tələblərinə cavab verən və I mərhələdə sənədləri qəbul olunan namizədlər II mərhələdə müvafiq müsahibədə iştirak edirlər.

**Müsahibədə iştirak etmək nə dərəcədə vacibdir?**

Müvafiq qaydalara əsasən, müsahibə “2022-2028 Dövlət Proqramı”na qəbul prosesinin mühüm mərhələsi olduğundan iştirak mütləqdir.

**Hansı halda namizəd müsahibədən azaddır?**

“Yüksəliş” müsabiqəsinin qalibi olmuş namizədlər müsahibə mərhələsində iştirak etmədən sənədləri yoxlanıldıqdan sonra meyarlara uyğunluqlarının qiymətləndirilməsinin nəticələrinə görə proqram iştirakçısı seçilirlər.

**Müsahibə zamanı hansı suallar verilir?**

Müsahibə mərhələsində ekspertlər tərəfindən namizədin elmi tədqiqat işlərini aparmaq bacarıqları, məntiqi mühakimə yeritmək və kommunikasiya bacarıqları, özünəinam və inandırma qabiliyyəti qiymətləndirilir.

**Üzrlü səbəbdən müsahibədə iştirak edə bilmədikdə nə etməli?**

Dövlət Proqramının müsahibənin keçirilməsi qaydalarına əsasən, yalnız üzrlü səbəbdən müsahibədə iştirak edə bilməyəcəyi təqdirdə, təyin edilmiş müsahibə tarixinə ən azı 1 (bir) iş günü qalmış Dövlət Proqramı İdarəetmə Qrupuna (dp22-28@edu.gov.az ünvanına) bu barədə məlumat vermək tələb olunur.

**Müsahibə hansı dildə keçirilir?**

Müsahibə Azərbaycan dilində və (və ya) proqram iştirakçısının xarici ölkədə təhsil alacağı müvafiq tədris dilində keçirilir.

**Müsahibədən keçid balı nə qədərdir?**

Müsahibə zamanı verilən qiymətin yuxarı həddi 50 baldır. Minimum 40 bal toplamış namizədlər meyarlara uyğun hesab edilir və müsabiqədə iştirak hüququ qazanır.

**Müsabiqə mərhələsində təhsil yerləri bölüşdürülərkən nələrə əhəmiyyət verilir?**

Müsahibə nəticələrinə görə proqram iştirakçılarının sayı ayrılmış təhsil yerlərinin sayından çox olduqda təhsil yerləri ilk növbədə "Yüksəliş" müsabiqəsinin qalibləri arasında bölüşdürülür, qalan təhsil yerləri isə namizədlərin yekun müsahibə qiymətlərinə uyğun olaraq ən yüksəkdən başlayan sıralama ilə müəyyən edilir.

**Yekun müsahibə balı eyni olan namizədləri fərqləndirmək üçün hansı əlavə göstəricilərdən istifadə edilir?**

Müsahibə balı eyni olan iştirakçıları müvafiq qaydaların 4.20.1-4.20.6-cı bəndlərinə uyğun olaraq əlavə göstəricilərdən istifadə edilir.

**Müsahibədə iştirak hansı halda ləğv oluna bilər?**

Müsahibə zamanı namizədin müraciətində və sənədlərində saxtakarlıq halı müşahidə olunduqda, müsahibəyə təyin olunan vaxtda gəlmədikdə və ya qoşulmadıqda, üzrlü səbəb olmadan müsahibəni tərk etdikdə, üzrlü səbəbdən müsahibədə iştirak edə bilməyəcəyi təqdirdə, təyin edilmiş müsahibə tarixinə azı 1 (bir) iş günü qalmış DPİQ-ə bu barədə məlumat vermədikdə və ya namizəd 2-ci dəfə onun üçün təyin olunmuş vaxtda müsahibədə iştirak edə bilmədikdə onunla keçiriləcək müsahibə ləğv oluna bilər.

**Müsahibə hansı formada həyata keçirilir?**

Müsahibə komissiyalarının tərkibi 3 (üç) nəfərdən az olmamaqla Elm və Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Neft Fondunun və namizədlərin ixtisas istiqamətlərinə uyğun sahədə dövlət siyasətini (tənzimləməni) həyata keçirən dövlət orqanlarının (qurumların) əməkdaşlarından və cəlb edilmiş mütəxəssislərdən formalaşdırılır. Müsahibə zamanı audio və video yazı aparılır.

## Maliyyələşmə

**Proqram çərçivəsində hansı xərclər qarşılanır?**

Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsi proqram iştirakçılarının aşağıdakı xərclərini əhatə edir: təhsil xərcləri, viza və təhsil aldığı ölkədə qeydiyyat xərcləri, aylıq yaşayış xərcləri, tibbi sığorta xərcləri, beynəlxalq nəqliyyat xərcləri, bank və plastik kart xərcləri.

**Dövlət Proqramı çərçivəsində xaricdə təhsil zamanı namizədin ailəsi də özü ilə olarsa, onun aylıq təqaüdünün artırılması mümkündür? Ailə üzvləri üçün viza dəstəyi varmı?**

"2022-2028 Dövlət Proqramı" çərçivəsində proqram iştirakçısının xaricdə təhsili zamanı ailə üzvlərinin yaşayış, nəqliyyat, sığorta, viza və yaxud digər xərclərinin maliyyələşdirilməsi nəzərdə tutulmamışdır.

**Namizəd ali təhsil müəssisəsinin təhsil haqqını özü ödədiyi təqdirdə, həmin məbləğ geri ödənilirmi?**

Proqram iştirakçılarının təhsilinin maliyyələşməsi Dövlət proqramına qəbulun aparıldığı cari tədris ili üçün aparılır. Elm və Təhsil Nazirliyi və proqram iştirakçısı arasında bağlanılan müqavilə əsasında maliyyələşmə müddəti həmin cari tədris ilindən etibarən qeyd edilir. Proqram iştirakçısı ali təhsil müəssisəsinin təhsil haqqını özü ödədiyi təqdirdə, həmin məbləğ geri ödənilir, cari tədris ilindən əvvəlki illər üzrə ödənilmiş təhsil haqqı isə ödənilmir.

**Proqram iştirakçısı hansı hallarda təhsilinin maliyyələşdirilməsi dayandırıla bilər?**

Proqram iştirakçısının hər semestr və tədris ili başa çatdıqdan sonra tədris planında nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi barədə müvafiq arayış və qiymət cədvəlinə (transkript) əsasən akademik borcu olduğu müəyyən edildikdə, proqram iştirakçısının təhsilinin maliyyələşdirilməsi həmin hal aradan qaldırılanadək Dövlət Proqramı İdarəetmə Qrupu tərəfindən dayandırılır. Proqram iştirakçısının akademik borcları aradan qaldırıldığı tarixdən onun maliyyələşdirilməsi bərpa edilir.

**Namizədin təhsil alacağı ölkə üzrə aylıq yaşayış xərcləri nəyə əsasən hesablanır?**

Təhsilalanların aylıq yaşayış xərcləri "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində xarici ali təhsil müəssisələrində təhsilin maliyyələşdirilməsi Qayda"sına əlavədə yer alan xarici ali təhsil müəssisələrində bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə təhsil alan Azərbaycan Respublikası vətəndaşlarının aylıq yaşayış xərcləri ilə bağlı aylıq xərc normalarına əsasən hesablanır.

**Proqram iştirakçısının təqaüdləri necə ödənilir?**

"2022-2028 Dövlət Proqramı" çərçivəsində təhsil almaq hüququ əldə etdikdən sonra hər bir proqram iştirakçısı Elm və Təhsil Nazirliyi tərəfindən "DP 2022-2028 Təqaüd Kartı" ilə təmin olunur. Dövlət

Proqramına qəbul olunan proqram iştirakçısı təhsil yerinə getdikdən və təhsilə başladığını təsdiq edən müvafiq sənədləri Dövlət Proqramı İdarəetmə Qrupuna təqdim etdikdən sonra müvafiq təqaüd kartı istifadə üçün aktivləşdirilir.

**Xarici universitet qəbul məktubunun göndərilməsi üçün namizəddən ödəniş tələb edirsə, namizədə həmin ödəniş geri qaytarılırmı?**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 218 nömrəli 1 iyun 2022-ci il tarixli Qərarı ilə təsdiq olunmuş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində xarici ali təhsil müəssisələrində təhsilin maliyyələşdirilməsi Qayda"sına əlavədə"larına uyğun olaraq sənədlərin Dövlət Proqramına təqdim edilməsindən başlanılır və sözügedən sənədin alınmasında proqram heç bir səlahiyyət daşımır.

## Xaricdə təhsil

**Yerli ali təhsil müəssəsində dövlət hesabına doktorantura təhsil səviyyəsi üzrə təhsil alan tələbə eyni təhsil səviyyəsi üzrə xaricdə ali təhsil müəssisəsinə qəbul aldıqda təhsilinin Dövlət Proqramı çərçivəsində maliyyələşməsi üçün müraciət edə bilərmi?**

Müvafiq qaydalara əsasən dövlət sifarişi və ya dövlət hesabına Azərbaycan Respublikasında ali təhsil pilləsinin doktorantura səviyyəsi üzrə təhsilin normativ müddətinin yarısından artıq müddətdə təhsil alan, habelə Azərbaycan Respublikasının dövlət proqramları və beynəlxalq müqavilələri (hökumətlərarası təqaüd proqramları) çərçivəsində xarici ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsilini başa vurmuş şəxslər eyni təhsil səviyyəsi üzrə proqram iştirakçılarının seçilməsində namizəd qismində iştirak edə bilməzlər.

**Artıq bir neçə semestr xarici ali təhsil müəssisəsində təhsil alan tələbə təhsilinin qalan hissəsinin Dövlət Proqramı çərçivəsində maliyyələşməsi üçün müraciət edə bilərmi?**

Müvafiq qaydalara uyğun olaraq, xarici ali təhsil müəssisəsində təhsil alan tələbə təhsilinin qalan hissəsinin Dövlət Proqramı çərçivəsində maliyyələşməsi üçün müraciət edə bilər.

**Namizəd ikili diplom proqramında təhsil aldığı təqdirdə universitet və təhsil proqramlarından biri siyahıya daxildir, ikincisi isə daxil deyilsə, Dövlət Proqramına müraciət edə bilərmi?**

Müvafiq qaydalara əsasən, təhsil almaq istədiyiniz və ya təhsil aldığınız ixtisasın tədrisi iki və ya daha artıq sayda xarici ali təhsil müəssisəsində aparıldığı halda, həmin müəssisələr Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunan prioritet ixtisas sahələri və nüfuzlu xarici ali təhsil müəssisələri üzrə təhsil proqramlarının siyahısında göstərilən ali təhsil müəssisələrinə uyğun olmalıdır.

**Qiyabi formada təhsil almaq mümkündürmü?**

"2022-2028-ci illər üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə doktorantura səviyyəsi üzrə təhsil yalnız əyani formada təhsil alan və ya almağı planlaşdıran namizədlər üçün nəzərdə tutulmuşdur.

**Dövlət Proqramında məcburi köçkünlər/şəhid ailəsi üzvlərinə hər hansı güzəştlər tətbiq olunur?**

"2022-2028 Dövlət Proqramı"nı tənzimləyən normativ-hüquqi sənədlərdə namizədlərə sosial statusuna görə güzəştlər və ya imtiyazların tətbiq olunması nəzərdə tutulmamışdır.

**Doktorantura təhsil səviyyəsi üçün müraciət edən iddiaçı hərbi xidmətdən möhlət hüququ olmalıdır?**

Namizəd hərbi mükəlləfiyyətlidirsə, namizədin hərbi bileti, yaxud xarici ali təhsil müəssisəsində təhsili başlayanadək ona müddətli həqiqi hərbi xidmətə çağırışa möhlətin verildiyini və ya çağırışdan azad edildiyini təsdiq edən arayış olmalıdır.

**Dövlət Proqramına müraciət etmək üçün maksimum yaş həddi nə qədərdir?**

"2022-2028 Dövlət Proqramı"na müraciət zamanı yaş həddi meyarı tətbiq edilmir.

**Hökümətlərarası Təqaüd Proqramının, Dövlət Proqramı məzunu və ya dövlət hesabına doktorantura təhsili almış şəxs Dövlət Proqramına müraciət edə bilərmi?**

Müvafiq qaydalara əsasən, Dövlət sifarişi və ya Dövlət hesabına Azərbaycan Respublikasının ali təhsil müəssislərində, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsi üzrə təhsilin normativ müddətinin yarısından artıq müddətdə təhsil alan, habelə Azərbaycan Respublikasının dövlət proqramları və beynəlxalq müqavilələri (hökümətlərarası təqaüd proqramları) çərçivəsində xarici ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsilini başa vurmuş şəxslər eyni təhsil səviyyəsi üzrə proqram iştirakçılarının seçilməsində namizəd qismində iştirak edə bilməz.